# Azərbaycan İKT-dən istifadə sahəsində liderliyini qoruyub saxlayır

## İqtisadiyyatın neft amilindən asılılığını azaltmaq, insan kapitalını inkişaf etdirməklə daha çox uğura nail olmağın mümkünlüyü isə İKT-nin inkişafı ilə bilavasitə bağlıdır



Azərbaycanda elm və texnologiyaların inkişafını şərtləndirən və eyni zamanda sosial həyatda əhalinin rifahına xidmət edən daxili və xarici siyasi kurs həyata keçirilir. Belə bir siyasətin nəticəsi olaraq ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyat qurulur. Bunun tərkib hissəsi kimi son illər Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun inkişafı da geniş vüsət almaqdadır.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu böyük uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə müsbət göstəricilərə imza atmışdır. Artıq dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir, ötən hər ay, hər il bütün sahələrdə əldə olunan uğurlarla tarixə düşür. Bəli, bu gün reallaşdırılan mühüm layihələr nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələndirilməsi uğurla təmin olunur,

Son illər Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Ölkəmiz bu prioritet sahədə də Transxəzər regionunda texnoloji liderliyini gücləndirmişdir. Belə ki, Azərbaycan elektron hökumət, təhsil, elektron kommersiya, infrastrukturun yenilənməsi, mobil rabitənin inkişafı və tətbiq olunan texnologiyaların təkmilliyinə görə region ölkələrindən seçilməkdədir. Lakin buna baxmayaraq, dünya iqtisadiyyatının təlatümlü dövründə İKT sektorunun qarşısında yeni vəzifələr durur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strateji istiqamət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək" tezisini səsləndirməklə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinin əsasının qoyulduğunu bütün dünyaya bəyan etdi və respublikamızda informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət səviyyəsində məqsədyönlü işlərə başlanğıc verdi. Bundan başqa, cənab İlham Əliyevin İKT sektorunu neft strategiyasından sonra prioritet sahə kimi bəyan etməsi məhz ölkəmizin iqtisadi inkişafında yeni mərhələnin başlanması demək idi. Hazırda İKT sektorunun hər bir iştirakçısı üçün qarşıda duran əsas məqsədlərdən biri respublikamızda qeyri-neft sektorunun lokomotivi sayılan yüksək texnologiyalar vasitəsilə biliklərə əsaslanan iqtisadiyyatın inkişafını sürətləndirmək və ixrac potensialını gücləndirməkdir. Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına böyük diqqət göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2013-cü ilin ölkədə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir.

Dünyanın kosmik klubunda öz layiqli yerini tutan, kosmik sənaye sahəsində inamla irəliləyən və bu sahədə xüsusi uğurlara imza atan Azərbaycan bu gün artıq "Azerspace-1" telekommunikasiya və "Azersky" Yer səthinin məsafədən müşahidə peykinə malikdir. Ölkəmiz növbəti illər üçün peyk layihələrinin icrasını uğurla davam etdirir.

Ölkəmizin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi və tranzit informasiya xidmətləri imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu gün Azərbaycan "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) kimi nəhəng bir layihənin təşəbbüskarı və koordinatoru olaraq dünyanın diqqətini özünə cəlb edir. Avropa ilə Asiyanı birləşdirəcək və ümumi uzunluğu 11 min kilometr təşkil edəcək TASİM-in yaradılması ideyası BMT-nin bir neçə qətnaməsi ilə dəstəklənib. Bunlardan 2013-ci il sentyabrın 4-də, BMT Baş Assambleyasının 67-ci sessiyasında Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş Avrasiya Rabitə Alyansının yaradılmasına dair qətnamənin yekdilliklə qəbul olunması bu layihənin həyata keçirilməsinə dünya ölkələrinin artan dəstəyinin bariz təzahürüdür.

Bütün ölkə ərazisi üzrə genişzolaqlı internetin inkişafını nəzərdə tutan böyük bir layihənin həyata keçirilməsinə başlanılır. Dövlət Neft Fondunun dəstəyi ilə start götürəcək bu layihənin başlıca məqsədi Azərbaycanın bütün yaşayış məntəqələrini yüksəksürətli internetlə təmin etməkdir. Layihə 3 il müddətində reallaşdırılacaqdır və layihənin həyata keçirilməsindən əsas gözləntilər ölkə ərazisində 30-100 Mbit/s genişzolaqlı xidmətlərə çıxış imkanı yaratmaq və genişzolaqlı internet istifadəçilərinin sayını 85 faizə çatdırmaqdır ki, bu da Azərbaycana dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çatmağa imkan verəcək.

Onu da vurğulamaq lazımdır ki, biliklərə əsaslanan iqtisadiyyatın qurulması istiqamətində işin davam etdirilməsi üçün yüksək texnologiyalar sahəsində intellektual məhsul hazırlayan özəl informasiya texnologiyaları ilə bağlı şirkətlərin yaxın illərdə xarici bazarlara çıxışı İKT sektorunun əsas məqsədlərindən biridir. Təbii ki, burada dövlətin dəstəyi də özünü qabarıq şəkildə göstərir. Reallıq isə bundan ibarətdir ki, yalnız dövlət dəstəyi sayəsində müxtəlif ölkələrin informasiya texnologiyaları ilə bağlı şirkətlər xarici bazarlara uğurla daxil ola bilir. Çinin, İsrailin, Türkiyənin müsbət təcrübəsi bu faktı bir daha təsdiqləyir. İnformasiya texnologiyaları ilə bağlı şirkətlərin xarici bazarlarda uğurlu fəaliyyəti yaxın gələcəkdə Azərbaycanın gəlirlərini daha da artıracaqdır.

Texnologiyalar əsri olan müasir dövrümüzdə İKT sektorunun genişləndirilməsinə, bu şəbəkədə çalışacaq ixtisaslı kadrların hazırlanmasına dövlət səviyyəsində diqqət artırılır. Bütün sahələrdə liderliyini qoruyan Azərbaycanda təhsilin inkişafında İKT-dən istifadəyə diqqət artırılır. İKT sektorunda qarşıda duran vəzifələrin reallaşdırılması, heç şübhəsiz, yaxın gələcəkdə Azərbaycanın iqtisadi qüdrətini daha da artıracaq, bu sahədə yüksək peşəkarlığı ilə seçilən təcrübəli idarəçilər, mütəxəssislər və innovasiyalı biznes sahəsində təşəbbüskar gənclər ordusu formalaşacaqdır. Göründüyü kimi, Azərbaycanda İKT-nin inkişaf dinamikası, uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkəyə olan inamın artması, beynəlxalq qurumlarla uğurlu əməkdaşlıq nümunələri, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması üzrə qarşıya qoyulan vəzifələr və ən nəhayət, dövlət siyasətinin tərkib hissəsi kimi İKT sahəsinə göstərilən böyük diqqət və qayğı ölkəmizin yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində böyük uğurlar qazanacağına zəmanət verir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***